

*Yasin ŞAHMALIOĞLU*

**AZSSRBAYCAN BALASIYAM**

*(İ.Şıxlının 65 illiyi və "Xalq Yazıçısı" adı alması münasibəti ilə)*

Bir torpaq ki, bar-bərəkət gətirə,
Daşında da qızıl güllər bitirə,
Nizamilər, Füzulilər yetirə
Ona qurban olasıyam, olası!

Şahdağımın şah vüqarı nəğmədir,
Göygölümün göy suları nəğmədir
Xəzərimin zər çaları nəğmədir,
İlhamımı alasıyam,alası!

Gəncəbasar ürəyimdi,canımdı,
Doğma Qazax hər xoş keçən anımdı.
Gözəl Bakı şöhrətimdi,şanımdı
Burda məskən salasıyam, salası!

Naxçıvanım yurdumda bir bəhrəmi?!
Qarabağım min nemətli süfrəmi?!
Lənkəranım təbiətə töhfəmi?!
Çox xəyala dalasıyam,dalası!

Qubanın ağ almasının ətrinə,
Şuşanın dağ havasının xətrinə,
Şəkinin söz-söhbətinin sətrinə
Gedib qonaq qalasıyam,qalası!

"Cahargah"ım muğamların şahımı?!
"Kərəmi"m də sevənlərin ahımı?!
Telli sazım musiqi allahımı?!
Onu daim çalasıyam,çalası!

Bacılarım Leyli kimi həyalı,
Gəlin köçər,qədəmləri sayalı.
Qardaşlarım binadan mərd mayalı
Namus,qeyrət qalasıyam,qalası!

Biləyimdə Koroğlunun gücü var,
Diləyimdə"kişilik!" tək inci var.
Ürəyimdə dünyanın sevinci var-
Azərbaycan balasıyam, balası!

1984

**ÖMRÜN GÖZSSLLİYİ**

*(Şair, Əməkdar incəsənət xadimi Barat Vüsalın 70 illiyinə)*

Dünyanın bir bucağında-
Seyidoğlu ocağında
İlin -günün xoş çağında.
Gəlişin nə gözəl imiş!

Uşaqlığı bitirəndə,
Gəncliyini gətirəndə.
Qələmə əl yetirəndə
Gərdişin nə gözəl imiş!

Sözləri bir-bir ələdin.
Şeriləri cərgələdin.
Ruhumuzu təzələdin.
Vərdişin nə gözəl imiş!

Ağadan-qaçaqdan yazdın,
Çobandan-çomaqdan yazdın,
Hər nə yazdın, haqdan yazdın.
Hər işin nə gözəl imiş!

Baş vurdun orta əsrə də,
Əl atdın dini həsrə də.
Fəlsəfə yüklü nəsrə də,
Girişin nə gözəl imiş!

İlhamınla sövdələşdin,
Əlli, altmış-püxtələşdin,
Könüllərdə zirvələşdin-
70-in nə gözəl imiş!

Dinlə Barat, arzuları:
Yazıb-yarat, artır varı!
Səksən, doxsan, yüzə sarı-
Gedişin lap gözəl olsun!

mart 2021-ci il

**DAĞLAR**

Ulu babaların ruhunun izi,
İgid oğulların basılmaz,dizi...
Bir də təbiətin qoynunda sizi
Yeganə şah əsər sanıram, dağlar!

Adlayam dərəni,yamaca keçəm
Havalı,şəfalı gözəl yer seçəm.
Gülündən iyləyəm,suyundan içəm
Ayrı ləzzəti var, tanıram,dağlar!

Bir dəstə qız döşdə çiçək dərəndə,
Bəhsə girib əlvan çələng hörəndə,
Dəstə içrə öz yarımı görəndə
Köksümdən od tutub yanıram,dağlar!

Yayın, istisində adam bişəndə,
Təntiyib güzarım sizə düşəndə,
Rahat dincələndə sərin güşəndə
Bürkülü aranı danıram,dağlar!

1974

**AYRILIQ NSS YAMAN DSSH-ŞSST OLARMIŞ!..**

*(Binəqədidə müəllim işlərkən rəhbəri olduğum sinfin şagirdləri ilə ayrılığın, son zəngin təsiri altında xatirə dəftərləri üçün yazılıb)*

Ayrılıq nə yaman çətin olurmuş,
Vücuda qaranlıq çökür elə bil!
Ürək kövrəlirmiş,gözlər dolurmuş,
Hicran da içimi sökür elə bil!

Kədər düşmən kimi əldə tüfəngi.
Üstümə hücuma gəlir elə bil!
Qəhər bir ox olub,qüssə firəngi
Bağrımın başını dəlir,elə bil!

Ətrafla, mühitlə ətalətdəyəm,
Dilim lal,qulağım kardır,elə bil!
Hamıya gen olan bu dünya, aləm-
İnanın mənəsə dardır,elə bil?!

Hisslərim donubmu, ya qıcdı nədi?
Tamam haldan düşüb,ölüb elə bil!
Həsrət-itilənmiş qılıncdı,nədi?
Məni iki yerə bölüb elə bil!

Bu nə fəlsəfədir? Bu nə zülmdür?
Nə sirrdir ?- Özüm də baş açammıram...
Nə var canımdadır - gözə görünmür,
Məlum-odlanıram... məchul-yanmıram!..

Deyin, nə bəladı mən düçar oldum?
Davası-dərmanı tapılmır,neynim?
Necə yol saraldım,necə yol soldum,
Bir dəfə, bir dəfə açılmır eynim?!.

Yoxsa məcrasını dəyişib Araz-
Mənim taleyimə axıbdı,nədi?!
Bəlkə, tale özü dönükdür bir az?!
Bu dəfə üzümə baxıb gülmədi!..

Ömrün gedişini özüm tezlədim!-
(Belə qənaətə gəlirəm hərdən.)
Yardan ayrılsam da,-mən nə gizlədim.
Ayrıla bilmirəm şagirdlərimdən...

Məlahət od idi sual-cavabda,
Biliyə can atmaq həvəskarıydı,
İnşada, imlada-cətində darda,
Necə yoldaşının xilaskarıydı.

Nailə hərdənbir dərs oxuyardı,
Həmişə kişmişi gülərdi ancaq.
Bağdagül də elə gül qoxuyardı,
Gülün də qədrini bilərdi ancaq.

Gör nələr çəkmədi Xaliqin başı. -
Bəxti məhəbbətdən gətirmədi heç...
Sevda ətəyindən tökmədi daşı -
Yazığı axtarıb-itirmədi heç.

Sevincin gözündə bir işıq vardı,
Sanki ulduzlardan süzülərdi o!
Üzündə, özündə yaraşıq vardı-
Deyəndə əzilib-büzülərdi o.

Səxavət şirindil oğlan olsa da,
Xeyriçün girərdi min bir cür dona.
Nə iş tutmuşdusa "razdevalka"da,
Hamı "razdevalka"deyərdi ona.

Natəvan əymirdi,üymürdü özün.
Sözünü qırdırma,kəsə deyərdi.
Hərdən də kiməsə zilləyib gözün
Odlu baxışıyla nəsə deyərdi.

Nüsrət vurğun idi Vurğun şerinə,
Söyləyib rahatlıq tapardı,əcəb!-
Salanda səsinin qalın yerinə
Sinifdə gülüşmə qopardı ,əcəb!

Qızbacı mehriban,səmimi idi,
O xoş sifətindən nur tökülərdi
Hər cür kobudluğun qənimi idi,
Ağzından söz deyil, dürr tökülərdi.

Deyirəm nə ola kaş o günlərin
Qayıda biləydim bir anlığına.
Tapardım həllini çətinliklərin,
Dözərdim Əyyubun şıltaqlığına...

Onlar iyirmi beş nəfər idilər
Biri dəcəldisə,digəri quzu...
Onlar açılan bir səhər idilər,
Uğur da diləmiş o dan ulduzu!..

Nə qədər desəm də yoxdur bir fayda:
"Eh ötən günlərim, itən günlərim!.."
Heç əl də eləmir qalıb o tayda
Sonu ayrılıqla bitən günlərim...

Ayrılıq, ayrılıq dəhşət olarmış!
Ömrümə qaranlıq çöküb elə bil!
Ürək dağlanarmış,gözlər solarmış.
Ayrılıq içimi söküb elə bil!...

1979

**DAĞLIQ QARABAĞ BİZİMDİR!**

Yatıb yuxusunda görüb
Nəsə, bu alçaq erməni.
Durub səsinə güc verib-
Eylədi lap ağ erməni.
Bəlkə başına at təpib
Düşübdür nacaq erməni
Yoxsa "aşkarlıqdır!" deyib
Qudurub sarsaq erməni?
Necə aydır bəhsə girib
İstəyir torpaq erməni.

Bir olan Allah da bilir
Yurdun binadan olmayıb
Qaf dağından üzü bəri
Mülki - Hayastan olmayıb!
Nəslin, kökün şübhəlidir
Yəqin insandan olmayıb!
Əcdadının həqiqətdir-
Fərqi heyvandan olmayıb-
Dağda -daşda ot otlayıb

Meşədə yarpaq erməni!
Pərpətöyün toxumu tək
Yayılıbsan dörd bir yana
Balkanlardan qovulanda
Sığındın Vana, Sasana...
Arxanı rusa söykədin
Köç etdin Azərbaycana
Dədə-baba yurdumuzu
Döndərdin Ermənistana.
Burnundan gəlsin, naşükür,
Nankor, qurumsaq, erməni!

Ulu babam o dağları
Sənə ərməğan eyləyib.
Dar günündə, darıxanda
Nəyi var imkan, eyləyib
Qoymayıb korluq çəkəsən
Hər işin asan eyləyib.
Kirvə tutub, qız alıbdır,
Toydan -nişandan eyləyib

Sanıb ki, gəlmə, qəribsən,
Qonaqsan, qonaq, erməni!

Baban gəlib babamgilə
Şırvanıb, quyruq bulayıb.
Gah otunu çalıb yığıb
Gah da əkini sulayıb.
Əlini, ağzını açıb,
Göyə üz tutub, ulayıb
Babamın yazığı gəlib
Sürdən-sümükdən tullayıb,
Unudub o günlərini.
Salıbsan nifaq erməni!

O sümüyə xəyanətdir
Etdiyin bu hərəkətin!
Xəyanətin fəlakətdir.
Tükənəcək bərəkətin!
Fəlakətin müsibətdir,
Dağılacaq məmləkətin!
Musibətin axirətdir
Kəsilər kökü millətin!
Cana doymuş dünya səndən
Olacaq iraq ,erməni!

Girişmisən müşkül işə
Yükün ağırmı?-Yaraşır!
"Miatsum"u bağırmaqdan
Dilin yağırmı?- Yaraşır!
İddiana, şüarına
"Astvas oğormi!" yaraşır
O Teatr meydanına
Elan bu formu yaraşır:
" ...bax, bizimdir bizim.
Dağlıq Qarabağ, erməni! "

May 1988

**BU GÜN**

*(Qardaşım Şahinə)*

Şahin qardaş, eşit, bil həyatında,
Ən əziz günlərdən biridir bu gün!
Yəqin nəzərində nənən, baban da,
Elə bil ölməyib, diridir bu gün!

Toyundur, sədası qalxıbdır göyə,
Min sevinc paylanıb kənddə hər öyə,
"Ağlama, səni də aparram" deyə
Ana körpəsini kiridir bu gün!

Qohum-əqrəbanın, ata -ananın,
Ürəyi yaxının, canı yananın,
Səni özünə dost, tanış sananın
Fərəhdən gözləri iridir bu gün!

Şəmistanın, Şahmalının ocağı,
Həyətin-bacanın küncü-bucağı,
Açıb məhəbbətə sonsuz qucağı
Eşqin qibləgahı, piridir bu gün!

Usta zurnasını yerə qoymayır,
Kimi qurşaq, tutur, kimi oynayır.
Qızıbdır beyini, qanı qaynayır,
Yasin də meydanın Şiridir bu gün!

1975

## Qəzəl

O gecə bəzənməklə, geyinməklə,ağı gözəl
Oyatdın sinəmdəki çəkdiyin hər dağı gözəl!

Məclisdə Günəş idin, gözləri qamaşdırırdın
Mat-məətəl qoymuşdun, solu da, həm sağı,gözəl!

Elə bərq vururdun ki işıqlar da sayrışırdı
Nuru səndən alırdı sarayın çırağı gözəl!

Əvvəldən axıradək nəzərlərim səndə idi.
Kədərə bürünmüşdü gözlərimin tağı, gözəl!

Oynayanda istədim tutub ipək əllərindən
Xəyalən toxunduram dodağa dodağı, gözəl!

Məhəbbət, sevgi ki var, ruha, da qida verəndir.
Bu dəmdən uzaq idi ruhumun xoş çağı gözəl!

Demişdin evdə davadır,bir qohum əl çəkməyir
Haradan peyda oldu, o filan uşağı, gözəl!

İlahi əndamının sahibi etdin kimisə
Sanıram o kimsəni, özümə bir yağı, gözəl!

Yasinin qisməti də oldu ayrılıq sitəmi .
Üzüldü ürəyinin, sənə olan bağı, gözəl!